**Qəniyev E**. Adını qəhrəmanlıq salnaməmizə yazan kapitan // Azərbaycan : qəzet. - 2024. - 27 fevral. - **№ 44**. - S. 9.

Cavid dünyaya gələndə hələ Xocalı faciəsi baş verməmişdi... Onda ermənilər Qarabağ savaşına "hazırlaşırdılar". Anası dünyaya yenicə gəlmiş körpəsinin beşiyinin başında lay-lay deyərkən Cavidə "qoçaq balam", "igid balam", "qəhrəman balam", - deyə xitab edər, atası Cavidi qucağına alıb sinəsinə sıxanda "Fəxrim, vüqarım, qürurum, Cavidim. Sən böyüyüb bizi bütün Azərbaycana tanıdacaqsan", - deyərmiş.
Cavidin iki yaşı olanda Ermənistan silahlı qüvvələri əsrin faciəsini - Xocalı soyqırımını törətdilər... Şuşa, Laçın işğal olundu... Ard-arda baş verən dəhşətli hadisələr Vətənimizə, xalqımıza ağır, faciəli günlər yaşatdı...
Ağlı söz kəsəndən Cavid evdə valideynlərindən, məktəbdə müəllimlərindən ermənilərin xalqımızın başına gətirdiyi dəhşətli, qorxulu faciələr haqqında hekayələr eşitdi... Dinlədiyi dəhşətli söhbətləri eşitdikcə yumruğunu bərk-bərk düyünlədi. Cavid böyüdükcə içindəki, qəzəb hissi qisas hissinə çevrilirdi. Uşaqkən eşitdiyi qorxulu nağıla bənzər söhbətlər böyüdükcə onun həyat yoluna çığır açırdı. Hərbçi olmaq, zabit olmaq, düşmənə etdiyi haqsızlıqların cavabını vermək hissi də beləcə aşılanmışdı ona...
Haqqında söz açdığımız şəhid kapitan Cavid Mahmudov 1989-cu il fevralın 6-da Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olub. 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil alıb. 2010-cu ildə ali hərbi məktəbi bitirən Cavid Mahmudov Azərbaycan Silahlı Qüvvələrinin Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissəsində leytenant rütbəsində bölük komandiri kimi xidmətə başlayıb. 2012-2018-ci illərdə Tovuz rayonunda, 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Göygöl rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edib. 2020-ci ildən isə o, Azərbaycan Silahlı Qüvvələrinin Abşeron rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətini davam etdirib.
Hərbi biliklərə yüksək səviyyədə yiyələnən, nizam-intizamlı zabit kimi komandanlığın hörmətini qazanan, verilən hərbi tapşırıqları layiqincə yerinə yetirən Cavid Mahmudovun xitməti komandanlıq tərəfindən qiymətləndirilərək hərbi rütbələri həmişə ona vaxtından əvvəl verilib.
Vətən müharibəsi başlayanda Cavid hərbi məktəbin magistr pilləsini də başa vurmuşdu. Nişanlı idi... Ürəyində böyük arzuları var idi. Ən böyük istəyi isə vətəni azad görmək idi. Şərəfli bir zabit kimi torpaqlarımızın azadlığı uğrunda döyüşmək, Azərbaycan bayrağını işğaldan azad olunmuş ərazilərimizdə ucaltmaq idi...
Vətən müharibəsinin ilk günündən kapitan Cavid Mahmudovun komandiri olduğu həmlə taboru Füzulinin Əhmədbəyli kəndi istiqamətində əks-hücum əməliyyatlarına başlayıb. Kapitan Cavid Mahmudovun komandiri olduğu taborun şəxsi heyəti düşmənin Füzuli rayonu istiqamətində alınmaz hesab etdiyi

yüksəkliklərdə bayrağımızı dalğalandırıb. Cavid Füzuli rayonunda 5-ci yüksəkliyə bayrağımızı sancarkən, düşmən snayperi tərəfindən vurulub.
Qardaşı Nəbi Mahmudov Cavidlə son telefon danışığını xatırlayaraq deyir: "Oktyabrın 2-də Cavid mənə zəng vurmuşdu. Dedi ki, "Qardaş, mən bura düşmənlə döyüşməyə gəlmişəm. Sənə söz verirəm ki, Füzuli rayonunun mərkəzinə bayrağı özüm sancacam". Qardaşım şəhid olandan sonra Füzulidə oldum. Onun keçdiyi istehkamları görəndə qardaşımla bir daha fəxr etdim".
Cavid Mahmudovun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq yüksək qiymətləndirilərək Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Şəhid kapitan Cavid Hilal oğlu Mahmudov eyni zamanda "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə də təltif olunub.